İMAM ƏLBANİNİN ƏSƏRLƏRİ SİLSİLƏSİNDƏN 4

Tovhid.info

# Qurani-Kərimi necə anlamalıyıq?


***İmam Muhəmməd Nasiruddin əl-Əlbani***
(Allah rəhmət etsin)



**Tərcümə və qeydlər:**
***Əbu Zeyd Həbibli***

İMAM ƏLBANİNİN ƏSƏRLƏRİ SİLSİLƏSİNDƏN: 4

# QURANİ-KƏRİMİ

# NECƏ ANLAMALIYIQ?

***Müəllif:***

İmam Muhəmməd Nasiruddin əl-Əlbani

(Allah qəni-qəni rəhmət eləsin!)

***Tərcümə və qeydlər:***

Əbu Zeyd Həbibli

بسم الله الرحمن الرحيم

# MÜQƏDDİMƏ

Həmd ancaq Allaha məxsusdur! Ona həmd edir, Ondan yardım istəyir və məğfirətini diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Ona sığınırıq. Allah kimi doğru yola yönəldərsə, onu heç kəs azdıra bilməz, kimi də azdırarsa, onu heç kəs doğru yola yönəldə bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa haqq məbud yoxdur. O, təkdir və şəriksizdir. Yenə şəhadət edirəm ki, Muhəmməd ﷺ Allahın qulu və son elçisidir.

*"Keyfə yəcibu aleynə ən-nufəssira əl-Quran əl-Kərim?"* – *"Qurani-Kərimi necə təfsir etməliyik?"* adlı bu risalənin[1] əsli şeyx Muhəmməd Nasiruddin əl-Əlbaniyə ünvanlanmış suallardan və şeyxin bu suallara səsli olaraq verdiyi cavablardan ibarətdir. Daha sonra həmin səs yazıları risalə halına salınmış və şeyxin özünə təqdim edilmişdir. Şeyx də, öz növbəsində, onu oxumuş və (lazım bildiyi yerlərə) öz əli ilə qeydlər yazmışdır.

Ər-Riyad şəhərində yerləşən "əl-Məarif" nəşriyyatı hər kəsin istifadə edə bilməsi və şeyxin elmi əsərlərinin hər yana yayılması üçün bu risalənin nəşr edilməsini məqsədəuyğun

[1] Bu risalə *"Qurani-Kərimi necə təfsir etməliyik?"* adı ilə nəşr olunmuşdur. Oxucular səhv anlamasınlar və sıravi insanların da Quranı təfsir edə biləcəkləri düşüncəsinə qapanmasınlar deyə, biz onu oxuculara *"Qurani-Kərimi necə anlamalıyıq?"* şəklində təqdim etdik. Çünki Qurani-Kərimi təfsir etmək bizim səlahiyyətimizdə olan bir iş deyildir. Bu, Quran və digər şəriət elmlərindən xəbərdar olan böyük alimlərin vəzifəsidir. Onu da qeyd edək ki, bu risalədə yalnız Quranın təfsir qaydasından bəhs edilmir. Risalədə Qurani-Kərimlə əlaqəli digər müxtəlif mövzular da yer almışdır.

saydı. Beləcə şeyx vəfatından sonra da, inşallah, bu əməlinin əcrini görəcəkdir.

Kiçik həcmli olmasına rəğmən, İslam ümməti üçün çox xeyirli və faydalı bir risalədir. Bu risalədə Qurani-Kərimi Uca Rəbbimizin muradına və Peyğəmbərimiz Muhəmmədin ﷺ sünnəsinə uyğun bir şəkildə təfsir etməyin və düzgün bir şəkildə anlamağın qayda-qanunları açıqlanmaqdadır. Belə ki, Qurani-Kərim Allahın razı qaldığı, Peyğəmbərinin ﷺ bəyan etdiyi və bu ümmətin ən xeyirli nəsillərinin – səhabə və onların izi ilə gedən tabiinlərin fəhmi üzərində təfsir edilməlidir (Allah onların hamısından razı olsun!).

Kiçik həcmli olmasına rəğmən, bu risalədə "Nicat tapan firqə"dən[1] olmaq istəyən hər bir müsəlmanın maraqlandığı çoxsaylı elmi qaydalar qeyd olunmuşdur. Müsəlmanın doğru istiqamətdə yürüyə bilməsi üçün bu qaydaları öyrənməsi və onlara əməl etməsi zəruridir. Həmin qaydara misal olaraq *"Bir bidət ortaya çıxdıqda onun müqabilində bir sünnə aradan qalxar"* qaydasını qeyd etmək olar. Uca Allah bu və bu kimi rəbbani qaydaları şeyxin qəlbinə ilham etmişdir. Həqiqətən də, şeyx Əlbani İslam şəriəti və Peyğəmbərin ﷺ sünnəsi barədə geniş elmə sahib idi. Uca Allah *"Allah sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kəslərin dərəcələrini artırsın"*[2] kəlamı ilə haqqı söyləmişdir. Uca Allah şeyxə rəhmət eləsin! Vəfatından sonra onun

---

[1] "Firqatun-naciyə" – "Nicat tapan firqə" Əhli-sünnətin ləqəblərindən biridir.

[2] Əl-Mucədələ, 11

elmini yayan kəsləri xeyirlə mükafatlandırsın və onun elmi ilə tanış olan hər bir müsəlmanı bu elmlə faydalandırsın![1]

***"Əl-Məarif" nəşriyyatı, 2007-ci il.***

⁂ ⁂ ⁂

[1] Dua edirəm ki, Rəbbim bizə bu böyük imamın elmindən faydalanmağı və onun bütün əsərlərini doğma ana dilimizə tərcümə etməyi nəsib etsin! Amin!

## *“İSTƏDİYİN BİR MƏSƏLƏ ÜÇÜN QURANDAN İSTƏDİYİNİ GÖTÜR!”* HƏDİSİ BARƏDƏ

**1-ci sual:** Möhtərəm şeyx, mən kiçik bir kitabda belə bir hədis oxudum: *“İstədiyin bir məsələ üçün Qurandan istədiyini götür!”* [1] Bu hədis səhihdirmi? Uca Allah sizi xeyirlə mükafatlandırsın, bu məsələdə bizə bir məlumat verin.

**Cavab:** *“İstədiyin bir məsələ üçün Qurandan istədiyini götür!”* kəlamı bəzi insanların dilində hədis olaraq yayılmışdır. Lakin çox təəssüflər olsun ki, bu kəlam sünnədə heç bir əsli olmayan “hədis” növlərindən hesab edilir. Bu səbəbdən də bu cür bir kəlamın Peyğəmbərə ﷺ nisbət edilməsi və rəvayət olunması icazəli deyildir.[2]

Digər tərəfdən İslam şəriətində *“İstədiyin bir məsələ üçün Qurandan istədiyini götür!”* şəklində bu qədər geniş və əhatəli bir hökm qətiyyən doğru və sabit ola bilməz. Məsələn, mən evimdə otursam və heç bir yerdə işləməsəm, daha sonra Rəbbimdən mənim üçün səmadan ruzi endirməsini istəsəm və üstəlik “bu ehtiyacımı Quranla bu cür qarşılayıram” desəm, bunu kim qəbul edər?!

Təbii ki, bu, batil bir kəlamdır. Ola bilsin ki, bu kəlamı xəlvətxanalarda [3] oturmağa, məskunlaşmağa vərdiş etmiş

---

[1] Yəni “ehtiyacın olan hər hansı bir məsələnin həlli üçün Qurandan istədiyin ayəni oxu!”

[2] İmam Əlbani “Silsilə əd-daifə” (557) əsərində bu “hədis”in batil olduğunu qeyd etmişdir.

[3] Sufilərin xəlvətə çəkildikləri kiçik ölçülü yer olan xəlvətxananın lüğəvi mənası “tənha yer”, “tənha yerə çəkilmə”dir.

tənbəl sufilər uydurmuşdur. Həmin sufilər bu xəlvətxanalarda tənhalığa çəkilər və Allahın ruzisinin insanlar tərəfindən onlara gətirilməsini gözləyərlər. Bilmək lazımdır ki, bu, müsəlman xislətinə yad olan bir əməldir. Çünki Peyğəmbər ﷺ bütün müsəlmanları möhkəm iradəli, izzətli və şərəfli olmağa təşviq etmiş və onları bu istiqamətdə tərbiyələndirmişdir. O ﷺ bu xüsusda belə demişdir: *"Üstdəki əl altdakı əldən daha xeyirlidir. Üstdəki əl verən, altdakı əl isə alan əldir".*[1]

Bu məqamda bəzi zahid və sufilər ilə əlaqəli vaxtilə oxuduğum bir hadisəni sizlərlə bölüşmək istəyirəm. Mövzunu çox uzatmayacam, çünki onların bu cür qəribə qissələri çoxdur.

Belə nəql edilir ki, onlardan biri səfər tədarükü görmədən (yanına heç bir azuqə almadan) səyahətə çıxır. İş o yerə gəlib çıxır ki, aclıqdan öləcək hala gəlib çatır. Elə bu ərəfədə gözünə uzaqdan bir kənd görünür və həmin kəndə gəlib çıxır. Həmin gün isə cümə günü olur. Bu şəxs, öz fikrinə görə, yalnız Allaha təvəkkül edərək səfərə çıxmışdır. Bu səbəbdən də öz "təvəkkül"ünü pozmamaqdan ötrü özünü məsciddə olan camaata izhar etmir. Bunun əvəzinə özünü gizlədərək minbərin altında oturur, lakin qəlbində "kaş ki biri mənim fərqimdə olaydı" deyirdi. İmam cümə xütbəsini verdikdən sonra camaat namaza durduqda həmin sufi onlarla namaza durmur (oturduğu yerdə qalır). İmam xütbəni verib, namazı tamamladıqdan sonra insanlar dəstə-dəstə və tək-tək məsciddən çıxmağa başlayırlar. Həmin kişi artıq məsciddə heç kəsin qalmadığını və qapıların

---

[1] Buxari, 1429 və Müslim, 1033. Qeyd edilən hədisin ləfzi Buxariyə aiddir.

bağlanacağını hiss edir. Beləcə tək-tənha ac-susuz halda məsciddə qalacağının fərqinə varır. Bu məqamda orda olanlara öz mövcudluğunu bildirməkdən ötrü öskürərək boğazını arıtlamaqdan başqa bir çarənin qalmadığını görür. Bir neçə nəfər ona tərəf dönür və onun aclıqdan bir dəri bir sümük qaldığı görür. Onu götürüb lazımi köməkliyi göstərirlər. Ondan soruşurlar: "Ay kişi, sən kimsən?" O da cavabında: "Mən Allaha təvəkkül etmiş zahid bir bəndəyəm", – deyir. Ona belə deyirlər: "Sən necə "mən Allaha təvəkkül edən biriyəm" deyirsən, halbuki az qala aclıqdan öləcəkdin?! Əgər sən Allaha təvəkkül edən biri olsaydın, günahların səbəbilə ölənə qədər heç kəsdən heç nə istəməz, öz varlığını da öskürərək camaata bəlli etməzdin".

Bax bu, *"istədiyin bir məsələ üçün Qurandan istədiyini götür!"* kəlamı kimi uydurma hədislərin səbəb olduğu hallara bir misaldır.

Xülasə, bu "hədis"in əsli-astarı yoxdur.

⁂ ⁂ ⁂

## QURANİLƏRİN DƏLİL GƏTİRDİKLƏRİ BƏZİ AYƏ VƏ HƏDİSLƏR BARƏDƏ AÇIQLAMA

**2-ci sual:** Möhtərəm şeyx, quranilər[1] bu ayələri (öz etiqadlarını isbat etməkdən ötrü) dəlil gətirirlər: *"Biz hər şeyi təfsilatı ilə izah etdik"*[2]; *"Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq"*.[3] Peyğəmbər ﷺ də belə demişdir: *"Həqiqətən, bu Quranın bir ucu Allahın, digər uca da sizin əlinizdədir. Ondan möhkəm yapışın! Ondan sonra siz heç vaxt azmayacaq və heç vaxt həlak olmayacaqsınız"*.[4] Sizdən bu məsələyə aydınlıq gətirmənizi rica edirik.

**Cavab:** İlk öncə *"Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq"* ayəsini ələ alaq. Bu ayədə "Kitab"dan məqsəd Qurani-Kərim deyil, Lövhi-məhfuzdur.[5] *"Biz hər şeyi təfsilatı ilə izah etdik"* ayəsinə gəldikdə isə, əgər Peyğəmbərin ﷺ sünnəsini də Qurani-Kərimə əlavə etmiş olsanız, o zaman Uca Allahın hər şeyi təfsilatı ilə izah etdiyini anlamış olarsınız. Bildiyiniz kimi, bir şeyi izah etmək bəzən mücməl formada, yəni ümumi qaydalar qoymaqla mümkün olur.

---

[1] Hədis inkarçıları.

[2] Əl-İsra, 12

[3] Əl-Ənam, 38

[4] Əlbani "Səhih ət-tərğib vət-tərhib" (1/93) əsərində hədisin səhih olduğunu demişdir.

[5] Lövhi-məhfuz – bütün varlıqların qədərinin (taleyinin) yazıldığı kitabdır. Uca Allah buyurur: *"Onun xəbəri olmadan bir yarpaq belə yerə düşməz. Yerin qaranlıqlarında elə bir toxum, yaş və quru elə bir şey yoxdur ki, aydın bir Kitabda (Lövhi-məhfuzda) olmasın"* (əl-Ənam, 59).

Həmin ümumi qaydanın tərkibinə çoxsaylı hökmlər daxil olur. Hikmət dolu şəriətin çoxsaylı hökmlər üçün ümumi mənalı mücməl qaydalar təyin etməsi bizə bu ayənin nə mənaya gəldiyini izah edir. Bəzən isə bir şeyi izah etmək həmin şeyi təfsilatlı formada açıqlamaqla həyata keçir ki, bu ayədən ilk baxışda anlaşılan məna da məhz budur. Necə ki Peyğəmbər ﷺ bu haqda belə demişdir: *"Uca Allahın sizə əmr etdiyi hər şeyi əskiksiz bir şəkildə sizə əmr etdim. Uca Allahın sizə qadağan etdiyi hər şeyi də əskiksiz bir şəkildə sizə qadağan etdim".*[1]

Deməli, bir şeyi izah etmək bəzən tərkibinə çoxsaylı hökmlər daxil olan ümumi qaydalarla, bəzən isə həmin qaydalara müraciət etməyə ehtiyac buraxmayacaq şəkildə ibadət və şəri ehkamları təfsilatlı formada açıqlamaqla mümkün olur.

Tərkibinə çoxsaylı şəri hökmlər daxil olan və bununla da İslam dininin əzəmətini və qanunlar təyin etmədəki genişliyini ortaya qoyan həmin qaydalara misal olaraq Peyğəmbərin ﷺ bu hədislərini qeyd etmək olar:

لا ضَرَر وَلا ضِرَار

*"(Dində) nə ziyan vurmaq, nə də ziyana ziyanla qarşılıq vermək var";*[2]

كُلّ مُسْكِرٍ خَمْر وَ كُلّ خَمْرٍ حَرَام

*"Hər sərxoşluq verən şey xamr (şərab), hər xamr (şərab) isə haramdır";*[3]

---

[1] Hədis səhihdir. Bax: "Silsilə əs-səhihə", 1803

[2] "Səhih əl-cəmi", 7517

[3] "İrvaul-ğalil" 8/40, 2373-cü rəvayət.

كُلّ بِدْعَةٍ ضَلالَة وَكُلّ ضَلالَة فِي النَّار

*"Hər bidət zəlalətdir, hər zəlalət də Cəhənnəm odundadır".*[1]

Bunlar elə geniş və ümumi mənalı qaydalardır ki, birinci hədis cana və mala vurulan bütün zərərləri, ikinci hədis isə sərxoşedici hər bir içkini özündə ehtiva edir. Belə ki, içki üzümdən, ya da digər bir maddədən hazırlanmasından asılı olmayaraq, sərxoşedici olduğu müddətcə (bu qaydaya – hədisə əsasən) haram hesab edilir. Qeyd edilən üçüncü hədis də bu cürdür. Belə ki, bidətlərin (xurafatların) çoxluğuna görə onların hamısını bir hədis daxilində qeyd etmək qeyri-mümkündür. Lakin bu hədis qısa və yığcam olmasına baxmayaraq, açıq bir şəkildə *"hər bidət zəlalətdir, hər zəlalət də Cəhənnəm odundadır"* deməklə bütün bidətləri öz içinə alır. Bax bu, ümumi qaydalar yolu ilə izah etmək sayılır.

Lakin sizə bəlli olan əksər şəri hökmlərə gəldikdə isə onların çoxu tam təfsilatı ilə Peyğəmbərin ﷺ hədislərində, miras kimi bəzi şəri ehkamlar isə Qurani-Kərimdə açıqlanmışdır.

Sualda qeyd olunan hədis isə səhih bir hədisdir. Həmin hədisə əməl etməli və ondan möhkəm tutunmalıyıq. Necə ki digər bir hədisdə belə deyilir: *"Aranıza iki şeyi qoyub gedirəm, onlardan bərk-bərk tutduğunuz müddətcə heç vaxt haqq yoldan azmayacaqsınız. Həmin iki əmanət: Allahın kitabı və mənim sünnəmdir".*[2]

---

[1] "Səhih ət-tərğib vət-tərhib" 1/92, 34-cü rəvayət, "Salətut-Təravih", səh. 75

[2] "Mişkət əl-məsabih" 1/66, 186-cı rəvayət.

Deməli, Uca Allahın əlimizdə olan ipindən tutmaq dedikdə, məhz Qurani-Kərimi açıqlayan sünnə ilə əməl etmək nəzərdə tutulur.[1]

⁂ ⁂ ⁂

---

[1] *"Həqiqətən, bu Quranın bir ucu Allahın, digər uca da sizin əlinizdədir..."* hədisini sünnənin inkarı üçün dəlil gətirmək öz-özlüyündə ziddiyyətə düşmək sayılır. Belə ki, əgər bu hədis yalnız Qurana əməl etməyi və hədisləri bir kənara qoymağı tələb edirsə, o zaman gərək, ilk öncə, elə bu hədisin özü kənara qoyulsun. Elə isə bu hədis bu mövzuda necə dəlil gətirilir?! Əslində isə bu hədis dolayı yolla sünnəyə tabe olmağı əmr edən bir hədisdir. Belə ki, bu hədis Qurana möhkəm sarılacağımız təqdirdə azmayacağımızı bəyan edir. Sünnəyə tabe olmaq da elə Qurana sarılmaq və onun əmrini icra etmək deməkdir. Çünki sünnəyə tabe olmağı bizə əmr edən elə Quranın özüdür. Uca Allah buyurur: *"Kim Peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar, kim üz çevirərsə, bil ki, Biz səni onlara gözətçi göndərməmişik"* (ən-Nisa, 80) ; *"Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin"* (əl-Həşr, 7).

## HƏDİS QURANA MÜXALİF OLARSA, NƏ ETMƏK LAZIMDIR?

**3-cü sual:** "Əgər hədis hər hansı bir Quran ayəsinə müxalif olarsa, səhihlik dərəcəsindən asılı olmayaraq, o rədd edilməlidir"[1] deyən biri vardır. O bu dediyinə misal olaraq *"həqiqətən, meyit ailəsinin onun üçün tökdüyü göz yaşına görə*[2]

---

[1] Bu iddia Peyğəmbərdən ﷺ hədis olaraq da rəvayət olunmuşdur. Allah rəsuluna nisbət olunan həmin hədisdə belə deyilir: *"Əgər məndən bir hədis rəvayət olunsa (sizə gəlib çatsa), onu Qurana ərz edin! Əgər Qurana müvafiq olsa qəbul edin, müxalif olsa rədd edin!"* İmam Yəhya ibn Məinin, Xattabinin və qeyrilərinin də dediyi kimi, bu hədis zındıqlar tərəfindən uydurulmuşdur. Bu hədisin batil olduğunun əlavə bir dəlili də elə "hədis"in özüdür. Belə ki, bu hədisin doğru olub-olmadığını bilmək üçün elə həmin "hədis"in tələbinə uyğun olaraq, onu Qurana ərz edirik və müxalif olduğunu görürük. Çünki Uca Allah Öz Kitabında Rəsuluna itaəti əmr etdikdə mütləq şəkildə və qeyd-şərtsiz olaraq əmr etmişdir: *"Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin"* (əl-Həşr, 7). Onu da qeyd edək ki, əslində, səhih bir hədisin Qurana müxalif olması mümkünsüz bir şeydir. Müxalif kimi görünən bəzi hədislər isə ya səhih deyildir, ya da ki, əslində, aralarında heç bir ziddiyyət yoxdur. Lakin bəzilərinə bu, ziddiyyət kimi görünə bilər və ya kimlərsə bunu məqsədyönlü şəkildə ziddiyyət varmış kimi göstərmək istəyər. Belə hallarda bu işin əhli olan alimlərə müraciət olunmalıdır: *"Əgər bilmirsinizsə, zikr əhlindən soruşun!"* (əl-Ənbiya, 7) Əks halda, nəinki sünnə ilə Quran arasında, hətta Quranın ayələri arasında da ziddiyyət iddia etmək mümkündür.

[2] Hədisdə *"göz yaşı tökmək"* dedikdə adi formada ağlamaq deyil, məhz ağı demək, sinə vurmaq, yaxa cırmaq və bu kimi şəriətə müxalif əməllər nəzərdə tutulur. Çünki İslam şəriəti ölən biri üçün ağlamağı qadağan etməmişdir. Peyğəmbər ﷺ oğlu İbrahim öldüyü gün ağladıqda əshabı bu barədə ondan soruşmuş, o da cavabında belə demişdir: *"Bu, (ağlamağım)*

*əzab olunar"* hədisini[1] qeyd edir və buna dəlil olaraq da Aişə anamızın *"heç bir günahkar başqasının günah yükünü daşımaz"* ayəsi[2] ilə bu hədisi rədd etməsini misal göstərir.[3] Belə deyənlərə necə cavab vermək olar?

**Cavab:** İlk öncə, onu qeyd edim ki, bu hədisi qəbul etməmək sünnəni Quranla rədd etməyin problemlərindən biri, habelə bu yolun səhv olduğunun bir göstəricisidir.

Bu hədisi, yəni Aişə anamızın hədisini dəlil gətirənlərə veriləcək cavabımız isə belədir:

**1.** Hədisin etibarlılığı yönündən cavabımız: Bu hədisi rədd etmək iki yöndən mümkünsüzdür:

Birincisi, bu hədis Abdullah ibn Ömərdən ﵄ səhih sənədlə nəql olunmuşdur.

İkincisi, bu hədisi təkcə İbn Ömər ﵄ rəvayət etməmişdir. Onunla birgə atası Ömər ibn Xattab ﵁ da bu hədisi nəql etmişdir. Həmçinin hədisi onlarla yanaşı Muğirə ibn Şöbə ﵁ də rəvayət etmişdir. Hal-hazırda xatırladığım qədərincə, bu

---

*mərhəmətin göstəricisidir. Göz yaşarar, qəlb hüznlənər. Lakin Rəbbimizi razı salmayacaq bir kəlmə belə dilimizə gətirmərik. Ey İbrahim, biz sənin ayrılığına çox kədərlənmişik"* (Buxari və Müslim). Aişə anamız belə nəql etmişdir: "Allah Rəsulu ﷺ dünyasını dəyişmiş Osman ibn Məzunun ﵁ yanına daxil oldu, onun üzünü açaraq qucaqlayıb öpdü və ağladı. Hətta mən onun yanaqları üzərindən göz yaşlarının axdığını da gördüm" (Beyhəqi, 4/307).

[1] "Səhih əl-cəmi", 1970

[2] Fatir, 18

[3] Aişə anamız bu hədisi hədis inkarçılarının metodu ilə rədd etməmişdir. O, sadəcə olaraq, hədisin bəzi səhabələr tərəfindən düzgün rəvayət edilmədiyini və hədisdə qeyd olunan əzabın bütün ölülərə deyil, məhz kafirlərə aid olduğunu demişdir.

üç səhabədən nəql olunan bu hədis Buxari və Müslimdə yer almaqdadır.

Lakin tədqiqatçı biri oturub bu hədis barədə xüsusi bir elmi araşdırma aparsa, şübhəsiz ki, bu hədisin başqa rəvayət yollarına da vaqif olacaqdır. Hər bir halda bu üç hədisin hamısının sənədi etibarlıdır və "Qurana müxalifdir" kimi quru bir iddia ilə rədd edilə bilməz.

**2.** Hədisin mənası yönündən cavabımız: Alimlər bu hədisi iki formada şərh etmişlər:

• Birincisi, bu hədis o meyitə aiddir ki, o öz sağlığında ailəsinin (ağı demək, sinə vurmaq və yaxa cırmaq kimi) şəriətə müxalif əməllər edəcəyini bildiyi halda, onlara öyüd-nəsihət verməmiş və ağlamamalarını onlara vəsiyyət etməmişdir. Bax bu halda onların tökdüyü göz yaşı həmin meyitin əzab görməsinə səbəb olacaqdır. Hədisdə keçən meyit (الميت) ləfzinin önündə olan "əl" (ال) müəyyənlik artiklı "istiğraq" (ümumilik) mənasında deyildir. Yəni hədisdə keçən "meyit" ləfzi ilə özü üçün ailəsinin göz yaşı tökdüyü bütün meyitlər nəzərdə tutulmur. Burada "əl" (ال) müəyyənlik artiklı "əhd" (nəzərdə müəyyən bir şəxsi tutmaq) mənasındadır. Yəni hədisdə keçən "meyit" ləfzi ilə vəfatından sonra ailəsinin şəriətə müxalif əməllər edəcəyini bildiyi halda, onlara nəsihət etməyən meyit nəzərdə tutulur ki, məhz beləsinə ailəsinin tökdüyü göz yaşına görə əzab olunacaqdır. Lakin ailəsinə ağı deməməsi üçün öyüd-nəsihət edən, ələlxüsus, zamanımızda daha çox baş verən və şəriətə müxalif olan əməlləri etməmələri üçün onlara vəsiyyət edən kəslər isə onun üçün tökülən göz yaşlarına görə əzab olunmayacaqdır.

Deməli, bizim bu hədisdən anladığımız birinci məna Nəvəvi kimi görkəmli bir çox alimin izah etdiyi bu qayda əsasındadır. Bunu anladıqdan sonra bizə bəlli olur ki, bu hədislə *"heç bir günahkar başqasının günah yükünü daşımaz"* ayəsi arasında heç bir ziddiyyət yoxdur. Əgər hədisdə keçən meyit (الميت) ləfzinin önündə olan "əl" (ال) müəyyənlik artiklını "istiğraq" (yəni "özü üçün göz yaşı tökülən hər meyitə əzab olunacaq") mənasında anlasaq, bu zaman hədis ilə ayə arasında ziddiyyət ortaya çıxır. Yox, əgər hədisi yuxarıda qeyd etdiyim qaydaya əsasən anlasaq, bu zaman heç bir problem və ziddiyyət hasil olmur. Çünki məhz ailəsinə öyüd-nəsihət verməyən, onlara vəsiyyət etməyən kəslərə əzab olunacaqdır. Bu, iddia olunan ziddiyyəti dəf etməkdən ötrü alimlərin qeyd etdikləri birinci şərhdir.

- İkincisi isə şeyxülislam İbn Teymiyyənin bəzi kitablarında qeyd etdiyi şərhdir.[1] Belə ki, o, hədisdə qeyd olunan əzabın qəbir, yaxud axirət əzabı olmadığını, bu əzabın mənəvi bir əzab, yəni acı çəkmək, kədərlənmək mənasında olduğunu demişdir. Yəni meyit onun üçün ağlayan ailəsinin səsini eşitdikdə buna görə üzülər və kədərlənər. İbn Teymiyyə hədisi məhz bu cür şərh etmişdir. Əgər hədisə verilən bu izah məqbul bir izah olsaydı, şübhəsiz ki, hədis ətrafında irəli sürülən şübhəni dəf etmək üçün kifayət edərdi. Lakin mən belə hesab edirəm ki, bu izah iki yöndən xətalıdır. Ona görə də hədisi birinci şərhə əsasən anlamalıyıq.

---

[1] İmam Muhəmməd ibn Cərir ət-Tabəri, İbn Qeyyim və Qadı İyad kimi alimlər də bu rəydə olmuşdur. Bax: İbn əl-Vəzir "əl-Əvasim vəl-Qəvasim" 3/188.

Birinci yöndən: Çünki yuxarıda qeyd etdiyim Muğirə ibn Şöbənin ﷺ rəvayətində bu əzabın acı çəkmək, kədərlənmək mənasında olmadığını ortaya qoyan bir qeyd mövcuddur. Həmin qeydə əsasən sözügedən əzab məhz ağıla ilk gələn əzabdır, yəni Cəhənnəm əzabı. Təbii ki, Uca Allahın əfv etdikləri kəslər istisnadır. Necə ki İzzət və Cəlal sahibi Allah belə buyurur:*"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar".* [1] Muğirə ibn Şöbənin ﷺ rəvayətinə əsasən, Peyğəmbər ﷺ belə demişdir: *"Həqiqətən, meyit ailəsinin tökdüyü göz yaşına görə Qiyamət günü əzab olunacaqdır".* Bu hədis açıq şəkildə sübutdur ki, meyit ailəsinin onun üçün tökdüyü göz yaşına görə İbn Teymiyyənin dediyi kimi qəbirdə acı çəkmək, kədərlənmək şəklində deyil, məhz Qiyamət günü həqiqi mənada əzab görəcəkdir.

İkinci yöndən: Quran və sünnənin də bəyan etdiyi kimi, insan öldükdən sonra hadisələrin yaxşı və ya pis olmasından asılı olmayaraq, ətrafında baş verənləri hiss etmir. Hədislərdə qeyd olunan, ya bütün ölülərə, ya da ki bəzilərinə şamil edilən müəyyən hallar isə istisnadır. Belə ki, Uca Allah özlərinə əziyyət verəcək bəzi şeyləri onlara eşitdirər.

Birinci növdən olanlara[2] dəlil olaraq imam Buxarinin "əs-Səhih" əsərində Ənəs ibn Malikdən ﷺ rəvayət etdiyi hədisi qeyd etmək olar. Həmin hədisdə Peyğəmbər ﷺ belə demişdir:*"Bəndə (cənazə) qəbirə qoyulduğu və dostlarının onu tərk edib getdikləri zaman – onların ayaq səslərini eşidər – onun*

[1] Ən-Nisa, 48

[2] Yəni bütün ölülərə şamil edilən hal.

*yanına iki mələk gələr".*[1] Bu səhih hədisdə ölənin dəfn zamanı və yaxınlarının onu tərk edib getdikləri vaxt müəyyən bir şeyi (ayaq səslərini) eşitməsinin dəlili mövcuddur. Yəni mələklər onu sorğu-sual üçün qəbirdə otuzdurduqda ruhu ona geri qayıdar və həmin vaxt onu tərk edib gedənlərin ayaq səslərini eşidər. Təbii ki, hədis bu və digər bütün ölülərin ruhlarının onlara qaytarıldıqdan sonra Qiyamət gününə qədər qəbirlər arasında gəzişən hər kəsin ayaq səslərini eşidəcəklərini ifadə etməz. Deməli, bu, ölülərin müəyyən vaxtlarda və xüsusi səsləri eşidəcəyini göstərir.[2] Çünki məhz həmin vaxt ölənin ruhu özünə geri qaytarılar. Əgər biz İbn Teymiyyənin hədisə verdiyi şərhini qəbul etsək, o zaman ölənin həm dəfnindən öncə, həm də qəbrinə qoyulduqdan sonra ətrafında olub-bitənlərdən xəbərdar olduğunu, habelə onun üçün göz yaşı tökənlərin səsini eşitdiyini demiş olarıq ki, bütün bunlar da dəlilə ehtiyac duyan mövzulardır. Bu barədə isə heç bir dəlil yoxdur. Bu birinci məsələ.

İkincisi məsələ: Bəzi ayə və hədislər ölülərin eşitmədiyinə dəlalət edir. Bu, geniş bir mövzudur. Sadəcə olaraq mövzu ilə əlaqədar bir hədis zikr edib, bununla da verilən suala cavabı tamamlayacam. Peyğəmbər ﷺ demişdir: *"Uca Allahın yer üzündə seyr edən mələkləri vardır ki, onlar ümmətimin salamını mənə çatdırırlar".* [3] "Seyr edən

---

[1] "Səhih əl-cəmi", 1675

[2] Deməli, ölülər mütləq şəkildə deyil, məhz Allahın onlar üçün təyin etdiyi vaxtlarda və müəyyən səsləri eşidər. Hədisə diqqət yetirdikdə ölülərin mütləq şəkildə – daim və hər səsi eşitmədiklərini anlamış olarıq. Belə ki, ölü daim deyil, məhz dostlarının onu tərk edib getdikləri zaman və hər səsi deyil, məhz onların ayaq səslərini eşidər.

[3] "Səhih əl-cəmi", 2174

mələklər"dən məqsəd məclisləri dolaşan mələklərdir. Belə ki, hər dəfəsində hər hansı bir müsəlman Peyğəmbərə ﷺ dua etdikdə onun salam-duasını bu işlə vəzifəli olan bir mələk Peyğəmbərə ﷺ çatdırar. Əgər ölülər eşitsəydilər, o zaman Peyğəmbərimiz ﷺ diriləri eşitməyə daha layiq olardı. Çünki Uca Allah onu bütün elçilərdən, nəbilərdən və aləmlərdən üstün etmiş, ona digərlərinə vermədiyi özəlliklər bəxş etmişdir. Əgər kimsə diriləri eşitməyə qadir olsaydı, şübhəsiz ki, həmin şəxs məhz Peyğəmbərimiz ﷺ olardı. Əgər Peyğəmbər ﷺ vəfatından sonra eşitsəydi, o zaman ümmətinin onun üçün etdiyi duaları eşidərdi.

Bununla da fəzilətdə Peyğmbərdən ﷺ də daha aşağı olan kəslərdən – digər peyğəmbərlərdən və ya övliyalardan mədət umaraq onlara səslənən kəslərin necə xəta etdiklərini və zəlalətə düşdüklərini daha yaxşı anlayırsınız. Çünki onlar mədət umaraq Peyğəmbərə ﷺ səslənsələr belə, o onları eşitməz. Necə ki bu, Quranda açıq bir şəkildə bəyan edilmişdir: *"Allahdan savayı çağırdıqlarınız da sizin kimi qullardır"* [1] ; *"Əgər siz onları çağırsanız, onlar sizin duanızı eşitməzlər, eşitsələr də cavab verə bilməzlər..."*.[2]

Deməli, bayaq qeyd etdiyim kimi, ayaq səslərini eşitmək kimi Quran və sünnədə qeyd olunan xüsusi hallar istisna olmaqla, ölən birisi öldükdən sonra heç bir şey eşitməz. Bununla da bu suala verəcəyimiz cavab burada yekunlaşır.

⁂ ⁂ ⁂

[1] Əl-Əraf, 194

[2] Fatir, 14

## QURAN OXUNDUĞU HALDA ONU DİNLƏMƏYİB BAŞQA İŞLƏ MƏŞĞUL OLMAĞIN HÖKMÜ NƏDİR?

**4-cü sual:** Maqnitofonda Quran oxunduğu halda orada olanların bir qismi öz aralarında söhbət etdikləri üçün onu dinləmirlərsə, bunun hökmü nədir? Belə halda Quranı dinləməyənlər, yaxud maqnitofonu açan kəs günah qazanırmı?

**Cavab:** Bu sualın cavabı maqnitofondan eşidilən Quran məclisinin növünə görə dəyişiklik ərz edə bilər. Əgər həmin məclis elm, zikr və Quran məclisidirsə, bu halda hər kəs susmalı və Quran tilavətinə qulaq verməlidir. Belə etməyən kəs günah qazanar. Çünki Uca Allah bu haqda belə buyurmuşdur: *"Quran oxunduğu zaman onu dinləyin və susun ki, bəlkə, sizə rəhm oluna"*.[1] Yox, əgər həmin məclis elm, zikr və Quran tilavəti məclisi yox, adi bir məclisdirsə, məsələn, bir kəsin öz evində hər hansı bir işlə məşğul olması, yaxud dərs çalışması və ya kitab oxuması kimi bir vəziyyətdirsə, bu halda maqnitofonu açmaq və evdə, yaxud hər hansı bir məclisdə olan digər insanlara çatacaq şəkildə səsini qaldırmaq icazəli deyildir. Çünki belə bir vəziyyətdə həmin insanlar Quranı dinləmək məcburiyyətində deyillər. Çünki onlar Quranı dinləmək üçün oturmayıblar. Məsuliyyət isə maqnitofonun səsini qaldıran və onu digərlərinə eşitdirənin üzərinə düşür. Çünki o bu hərəkəti ilə insanları çətinliyə

---

[1] Əl-Əraf, 204

salmış və Quran dinləməyə müsait olmayan kəsləri buna məcbur etmişdir.

Mövzu ilə əlaqədar digər bir misal: Yolda gedərkən yağ və ya hazır yemək satıcısının, yaxud kaset satıcısının yanından keçdikdə bütün küçəni bürüyən Quran sədası eşidirik. Hara gedərsənsə, bu səsi eşidərsən. Məgər hər kəs öz yolu ilə getdiyi halda, yersiz yerə oxudulan bu cür Quran qiraətini dinləməyə məcburdurmu? Təbii ki, xeyr! Bunun məsuliyyətini yalnız və yalnız bu hərəkəti ilə camaata sıxıntı verən və məcburən onlara Quran qiraətini eşitdirən kəs daşıyır. Bu isə ticarətinin yaxşı getməsi, insanların diqqətini özünə cəlb etməsi və digər maddi maraqlardan ötrü edilmiş bir hərəkətdir. Deməli, belələri bəzi hədislərdə qeyd edildiyi kimi,[1] Quranı çalğı aləti kimi istifadə edən və beləcə yəhudi və xristianların metodundan fərqli bir üslubda Allahın ayələrini ucuz qiymətə satan kəslərdir. Uca Allah belələri haqda buyurur: *"Onlar Allahın ayələrini ucuz qiymətə satır"*.[2]

⁂ ⁂ ⁂

[1] "Silsilə əs-səhihə", 979

[2] Ət-Tövbə, 9

## *“ONLAR HİYLƏ QURDULAR, ALLAH DA HİYLƏ QURDU. ALLAH HİYLƏ QURANLARIN ƏN YAXŞISIDIR”* AYƏSİNİN MƏNASI

**5-ci sual:** Uca Allah Özü barədə xəbər verərək belə buyurur: *“Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır”.*[1] Ola bilsin ki, bəzi insanların ağlı bu ayəni zahiri mənası ilə qavraya bilməsin. Biz (əhli-sünnə) də təvil əhli olmadığımıza görə Uca Allahın hiylə quranların ən yaxşısı olduğunu necə anlamalıyıq?

**Cavab:** Allahın izni ilə məsələ çox sadədir. Çünki biz bilirik ki, məkr – hiylə məfhumu daim yaxşı mənada işlənmədiyi kimi, hər zaman pis mənada da işlənmir. Nə qədər kafir vardır ki, müsəlmana hiylə qurmaq istəyir, lakin həmin müsəlman axmaq və ya qafil deyil, əksinə, zəkalı və gözüaçıq olur. Beləcə həmin kafirin hiyləsinin fərqinə vararaq, onu qabaqlayır və hiyləsinə hiylə ilə qarşılıq verərək planını pozur. Nəticə etibarilə, müsəlman öz müsbət məkri ilə kafirin şərli hiyləsinin qarşısını alır. Belə halda demək olarmı ki, həmin müsəlman kafirə qarşı məkr işlətməsi ilə şəriətə müxalif hərəkət etmiş oldu? Təbii ki, heç kəs belə bir şey deməz.

Peyğəmbərin ﷺ *“Hərb hiylədir”*[2] kəlamından bu məsələnin həqiqətini anlamaq elə də çətin deyil. Hiylə barədə deyilənlər məkrə də şamil edilir. Müsəlmanın

---

[1] Ali-İmran, 54

[2] Buxari, 3030 və Müslim, 1740

müsəlman qardaşını aldatması haramdır. Lakin bir müsəlmanın Allahın və Peyğəmbərinin ﷺ düşməni olan bir kafiri aldatması isə haram deyil, əksinə, vacibdir. Həmçinin kafirin hiyləsinə hiylə ilə qarşılıq verərək onun planını puç etmək də bu cürdür və bu, yaxşı məkr sayılır. Qeyd etdiyimiz bu misalda hər iki tərəf də insandır. Elə isə hər şeyi bilən, sonsuz hikmət sahibi olan, aləmlərin Rəbbi və hər şeyə qadir Allah barədə nə deyə bilərik?!

Uca Allah hiyləgərlərin bütün məkrlərini alt-üst edəndir. Bu səbəbdən də O Özü barədə belə buyurur: *"Allah hiylə quranların ən yaxşısıdır".* İzzət və Cəlal sahibi Rəbbimiz Özünü bu cür vəsf etdikdə, hətta bəşər övladında belə məkr ləfzinin daima pis mənada işlənmədiyinin fərqinə varırıq. Çünki O belə buyurur: *"Hiylə quranların ən yaxşısı".* Buradan da anlaşılır ki, məkr edənlərin yaxşısı da olur, pisi də. Deməli, Uca Allahın *"Hiylə quranların ən yaxşısı"* kəlamında da olduğu kimi, yaxşılıq üzərində məkr edən kəslər məzəmmət oluna bilməz.

Xülasə olaraq deyirəm: Uca Allah sənin ağlına Özü barədə gələn hər şeydən münəzzəhdir. Əgər insan Rəbbi barədə Ona layiq olmayan bir şeyi xəyal edirsə, bilsin ki, elə əvvəlindən xəta edibdir. Sualda qeyd olunan ayə isə İzzət və Cəlal sahibi Allah barədə bir sənadır və burada Uca Allaha nisbət edilməsi caiz olmayan bir şey yoxdur.[1]

---

[1] Uca Allahın bütün sifətləri kamil vəsflərdir və Onun vəsflərində heç bir qüsur, eyib və naqislik yoxdur. *"Ən uca vəsf Allaha məxsusdur"* (ən-Nəhl, 60). Allahın sifətləri içərisində özündə hər hansısa bir naqislik ehtiva edən bir vəsfin olması qeyri-mümkündür. Bu cür vəsflərə misal olaraq ölümü, unutqanlığı, acizliyi, karlığı, korluğu, cahilliyi və s. bu kimi vəsfləri qeyd etmək olar. Uca Allah buyurur: *"Heç vaxt Ölməyən, əbədi Yaşayana təvəkkül et!"* (əl-Furqan, 58); *"Rəbbim nə xəta edir, nə də unudur!"*

(Ta ha, 52); *"Göylərdə və yerdə Allahı aciz hala salacaq heç bir şey yoxdur"* (Fatir, 44); *"Onu nə mürgü, nə də yuxu tutar"* (Əl-Bəqərə: 255). Lakin bəzi vəsflər vardır ki, bir yönü ilə kamillik, digər yönü ilə naqislik vəsfi sayılır. Buna misal olaraq, məkr, aldatma, istehza kimi vəsfləri qeyd etmək olar. Belə sifətləri nə mütləq – qeyd-şərtsiz bir şəkildə isbat etmək, nə də inkar etmək düzgündür. Belə halda məsələyə təfsilatlı şəkildə yanaşmaq lazımdır. Bu cür sifətlər (məkr, istehza və s.) onu edənin müqabilində edildiyi təqdirdə kamillik sifəti sayılır. Çünki bu hal qarşı tərəfin önündə aciz olmadığını göstərir ki, bu da kamillik vəsfidir. Elə bu səbəbdəndir ki, Uca Allah Özünü qeyd-şərtsiz mütləq bir şəkildə bu cür vəsflərlə vəsfləndirməmiş, əksinə, bütün bunları onu edənlərin müqabilində zikr etmişdir. Uca Allah buyurur: *"Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır"* (əl-Ənfal, 30); *"Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır"* (ən-Nisa, 142); *"Onlar möminlərlə qarşılaşdıqda: "Biz iman gətirdik!" – deyirlər, öz şeytanları (yəni azmış dostları) ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik, biz möminlərə yalnız istehza edirik!" – deyirlər. Allah da onlara istehza edər"* (əl-Bəqərə, 14-15).

# ALİ-İMRAN, 85-Cİ VƏ ƏL-MAİDƏ, 69-CU AYƏLƏRİ BİR YERDƏ DÜZGÜN ŞƏKİLDƏ NECƏ ANLAMAQ OLAR?

**6-cı sual:** *"İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz"*[1] ayəsi ilə *"İman gətirənlərin, habelə yəhudi, sabii və nəsranilərdən Allaha və Axirət gününə iman gətirib yaxşı iş görənlərə heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər"*[2] ayəsini bir yerdə düzgün şəkildə necə anlamaq olar?

**Cavab:** Sualdan anlaşıldığı kimi, bu iki ayə arasında heç bir ziddiyyət yoxdur. Çünki "İslam" ayəsi[3] Uca Allahın ikinci ayədə *"onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər"* kimi vəsf etdiyi kəslərə İslam dəvətinin çatmasından sonra tətbiq olunur. Ayədə adı keçənlər arasında sabiilər də mövcuddur. "Sabiilər" deyildikdə, ilk öncə, ağıla ulduza ibadət edənlər gəlməkdədir. Lakin həqiqətdə "sabii" deyildikdə tövhid əhli olduqdan sonra şirkə düşən hər bir qövm nəzərdə tutulur. Sabiilər ilk öncə tövhid əhli idilər. Daha sonra şirkə düşdülər və ulduzlara ibadət etdilər. Bu ayədə sözü keçənlər isə sabiilərin tövhid əhli olan möminləridir. Onlar da yəhudi və nəsranilər kimi, İslam dinindən öncəki sabiilərdir. Beləcə onlar bu ayədə sabiilərlə birgə qeyd olunmuşlar. Deməli, ayədə sözügedən kəslər vaxtilə öz dinlərindən möhkəm tutunan möminlər

[1] Ali-İmran, 85
[2] Əl-Maidə, 69
[3] Yəni Ali-İmran, 85

idilər ki, ayədə də *"onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər"* kimi vəsf olunmuşlar.

Lakin İzzət və Cəlal sahibi Allah Muhəmmədi ﷺ İslam dini ilə göndərdikdən və yəhudi, nəsrani, sabiilər kimi insanlara İslam dəvəti gəlib çatdıqdan sonra onlardan İslamdan başqa bir din əsla qəbul olunmayacaqdır. Deməli, Uca Allahın *"İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz"* ayəsinin mənası budur ki, Peyğəmbərin ﷺ vasitəsilə İslam dini gəldikdən və həmin şəxsə İslam dəvəti gəlib çatdıqdan sonra ondan İslamdan başqa bir din əsla qəbul olunmayacaqdır. Lakin İslamdan əvvəl, yəni Peyğəmbərin ﷺ gəlişindən öncə olanlar, yaxud hal-hazırkı dövrdə İslam dəvətinin özlərinə çatmadığı və ya kökündən təhrif olunmuş şəkildə çatdığı kəslər[1] isə iki qisimdir:

Birinci qisim: Öz dini (yəhudilik, nəsranilik) üzərində olan və dininə əməl edən kəslərdir. Uca Allahın *"onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər"* kəlamı bu cür insanlara şamil edilir.

İkinci qisim isə bugünkü əksər müsəlmanların halı kimi, öz dinlərindən üz çevirən, yəni dinlərinə əməl etməyən kəslərdir ki, belələrinə artıq dəlil-sübut çatmış sayılır.[2]

---

[1]Mən bəzi məclislərdə qadiyanilər barədə danışmışam. Belə ki, onlar günümüzdə Amerikada və avropada çox yayılmışlar və "İslam"ı təbliğ etməklə məşğuldurlar. Lakin onların təbliğ etdikləri İslamın həqiqi İslamla heç bir əlaqəsi yoxdur. Çünki onlar sonuncu peyğəmbər olan Muhəmməddən ﷺ sonra da peyğəmbərlərin gələcəyinə etiqad edirlər. Deməli, hər hansı bir qadiyani tərəfindən İslama dəvət olunan amerikalıya və ya avropalıya, əslində həqiqi İslam dəvəti çatmamışdır ***(imam Əlbani)***.

[2] Belələrinə heç bir üzr yoxdur və Uca Allahın *"onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər"* kəlamı bu cür insanlara şamil edilmir.

İslamın gəlişindən öncə və sonra heç bir vəchlə özlərinə İslam dəvətinin gəlib çatmadığı kəslərə gəldikdə isə bu cür insanlarla Qiyamət günü xüsusi bir şəkildə rəftar olunacaqdır. Belə ki, İzzət və Cəlal sahibi Allah yer üzündə insanları imtahan etdiyi kimi, Qiyamət günü onları da imtahan edəcək və bu imtahandan ötrü onlara peyğəmbər göndərəcəkdir. Kim Qiyamət gününün hesab meydanında həmin peyğəmbərə itaət edəcəksə, Cənnətə girəcək, asi olanlar isə Cəhənnəm oduna vasil olacaqdır.[1]

⁂ ⁂ ⁂

[1] Peyğəmbərin ﷺ bizə xəbər verdiyinə əsasən, Qiyamət günü (özlərinə İslam dəvəti çatmamış) dörd qisim insan, yəni uşaq, məcnun, fətra əhli (heç bir peyğəmbərin dəvəti çatmamış dövrdə yaşayıb ölən kəs) və əldən düşmüş qoca (Allahın hüzuruna) gətirilər. Onların hamısı özlərinə haqq qazandırarlar. Daha sonra Uca Allah onlara hesab meydanında ortaya çıxan bir alovun içinə girməyi əmr edər. Əmrə boyun əyərək oda girənlər, əslində Cənnətə girəcəklər. Əmrə tabe olmayıb asilik edənlər isə Cəhənnəmə vasil olacaqlar" ("Silsilə əs-səhihə", 2468. Hədisi ixtisarla nəql etdim).

## *“QURANI ANLAMASINLAR DEYƏ, ONLARIN QƏLBLƏRİNƏ PƏRDƏ ÇƏKDİK, QULAQLARINA DA TIXAC VURDUQ”* AYƏSİNDƏ CƏBRİLİYİN DƏLİLİ VARMI?

**7-ci sual:** Bəzi insanlar Uca Allahın *“Quranı anlamasınlar deyə, onların qəlblərinə pərdə çəkdik, qulaqlarına da tıxac vurduq”*[1] kəlamından cəbriliyin[2] iyini hiss edirlər. Bu barədə fikriniz nədir?

**Cavab:** Bu ayədə “pərdə çəkmək, tıxac vurmaq” məfhumu kövni mənada işlənmişdir. Bunu anlamaq üçün, ilk növbədə, ilahi iradənin (Allahın istəyinin) nə olduğunu bilmək lazımdır. Belə ki, ilahi iradə iki qismə bölünür: Şəri iradə və kövni iradə.

Şəri iradə dedikdə Uca Alahın bəndələrinə əmr və qadağan etdiyi hər şey, habelə əməl etməyə təşviq etdiyi, fərz və müstəhəb kimi fərqli hökmləri olan itaət və ibadətlər nəzərdə tutulur. Uca Allah bu növ əməllərin icra olunmasını tələb edir və bunu sevir.

Kövni iradə isə, ola bilsin, Allahın bəndələrinə əmr və qadağan etdiyi, onlar üçün şəriət təyin etdiyi bir şey

---

[1] Əl-Ənam, 25

[2] Cəbrilik dedikdə bir yarpağın ağacdan asılı qaldığı və külək onu haraya yönəldərsə, o yönə istiqamətləndiyi kimi, insanın da qədərdən (taledən) asılı olduğu və heç bir iradəsinin olmadığı nəzərdə tutulur. Bizim dildə bunu “məcbur etmə” kimi tərcümə etmək də olar. Cəbrilik ideologiyası qədəri inkar edənlərin əksi olaraq meydana çıxmış və öz etiqadlarını dəstəkləməkdən ötrü bu kimi ayələri dəlil gətirmişlər.

olmasın, lakin Uca Allah həmin şeyin olmasını istəmiş və təqdir etmişdir. Uca Allahın bu iradəsi (istəyi) *“Bir şeyi yaratmaq istədikdə ona təkcə: "Ol!" deyər, o da olar"*[1] ayəsinə istinadən kövni iradə adlanmışdır.[2] Ayədə keçən (شيئا) *“Bir şeyi"* ifadəsi qeyri-müəyyənlikdə işlənmişdir deyə, ibadətlər və ya asiliklər olsun, fərq etməz, hər bir şeyi ehtiva edir. Bütün bunlar isə Uca Allahın (كن) “kun!”, yəni “ol!” əmri ilə baş verir. Yəni Onun istəyi, iradəsi, qədəru-qəzası ilə hasil olur. Kövni iradənin nə mənaya gəldiyini anladıqdan və bu iradənin hər şeyi – həm itaətləri, həm də asilikləri ehtiva etdiyini bildikdən sonra gərək qədər və qəza mövzusuna nəzər yetirək. Çünki Uca Allahın *“Bir şeyi yaratmaq istədikdə ona təkcə: "Ol!" deyər, o da olar"* kəlamının mənası budur: Onun “ol!” dediyi şey mütləq baş verməlidir və olmaması mümkün deyil. Hər şey Uca Allahın qatında bir ölçü ilə yaradılmışdır. Burada hər şey dedikdə xeyir və şər olan hər bir şey nəzərdə tutulur. Lakin Uca Allahın əmr və qadağalarından mükəlləf – məsul olan biz insanlar və cinlər ilə əlaqəli yönü isə fərqlidir. Bu halda baxılır: bizim əməllərimiz ya öz iradəmiz və seçimimiz ilə, ya da ki bizə bağlı olmadan hasil olur. Bu, ikinci qisim itaətlərə və asiliklərə bağlı olmayan və bizə Cənnəti, yaxud Cəhənnəmi qazandırmayan əməllərimizdir. Şəriət ehkamlarına bağlı olanlar məhz birinci qisim əməllərimizdir. Deməli, insana Cənnəti və ya Cəhənnəmi qazandıran məhz öz iradəsi, istəyi və seçimi ilə etdiyi əməlləridir ki, məhz bu növ əməllərə

[1] Ya sin, 82

[2] Çünki “kövni” sözü ayədə keçən (كن) “kun!”, yəni “ol!” əmrindən götürülmüşdür.

görə Qiyamət günü sorğu-sual olunacaq, yaxşı əməllərinə görə mükafatını və pis əməllərinə görə də cəzasını alacaqdır. İnsanın əksər əməllərində ixtiyar sahibi olması nə şəri, nə də ki əqli yöndən inkarolunmaz bir həqiqətdir.

Şəri yöndən: İnsanın əmr olunduğu şeyləri yerinə yetirməsi və qadağan olunduğu şeylərdən çəkinməsinin zəruriliyi barədə Quran və sünnə dəlilləri sayılmayacaq qədər çoxdur.

Əqli yöndən: Qərəzsiz hər bir insana bəllidir ki, o danışdıqda, yürüdükdə, yeyib-içdikdə – bir sözlə, öz ixtiyarı ilə etdiyi hər bir əməlində o, ixtiyar sahibidir və bu əməlləri etməyə məcbur deyildir. Hal-hazırda əgər mən danışmaq istəyirəmsə, məni buna heç kəs məcbur etmir. Buna rəğmən, mənim bu danışığım da Uca Allah tərəfindən təqdir (təyin) edilmişdir. Yəni danışdığım və dilə gətirdiyim hər bir şeyin öz ixtiyarımla baş verməsi ilə bərabər yenə də bütün bunlar Allah tərəfindən təqdir edilmişdir. Lakin mənim danışıb-danışmamağımda ixtiyar sahibi olduğum barədə şübhə edən kəsə bunu isbat etməkdən ötrü danışmayıb susa da bilərəm.

Deməli, praktiki olaraq insan övladının ixtiyar sahibi olması mübahisəsiz qəbul olunası bir həqiqətdir. Bu kimi mövzularda mübahisə edən kəs isə boşboğaz və hər kəsə bəlli olan gün kimi aydın məsələlərə belə şübhə ilə yanaşan biridir. Əgər bir insan özünü bu səviyyəyə salırsa, artıq onunla söhbət etməyin də bir mənası qalmır.

Xülasə, insanın əməlləri iki qisimdir: ixtiyari və məcburi. Mövzumuz nə şəri, nə də ki praktiki yöndən məcburi əməllər barədədir. Çünki şəriətin hökmləri məhz ixtiyari əməllərlə əlaqəlidir. Bu, bir həqiqətdir. Bu həqiqəti ağlımıza

yerləşdirsək, o zaman *"Quranı anlamasınlar deyə, onların qəlblərinə pərdə çəkdik, qulaqlarına da tıxac vurduq"* ayəsindəki "pərdə çəkmənin, tıxac vurmanın" kövni mənada işləndiyini anlamış olarıq. Həmçinin unutmamalıyıq ki, *"Bir şeyi yaratmaq istədikdə ona təkcə: "Ol!" deyər, o da olar"* ayəsindəki iradə (istək) də kövni iradədir. Lakin bütün bunlara rəğmən, Uca Allah onları qəlbləri pərdəli halda yaratmamışdır.

Mövzuya dair maddi yöndən misal: İnsan yaradıldıqda əti, sümüyü yumşaq halda yaradılır. Daha sonra böyüdükcə əti sərtləşir, sümüyü möhkəmlənir. Lakin insanların hamısı bu yöndə eyni deyildir. Məsələn, bir insan özünü elm və tədrisə həsr etsə, o hansı yöndən qüvvət qazanmış olar? Təbii ki, bu halda onun ağlı və məşğul olduğu, üzərində çalışdığı yöndən beyni qüvvətlənmiş olar. Lakin belə birisinin bədəni cismi yöndən güclənməz, əzələləri möhkəmlənməz. Bunun əksinə, digər bir insan cismi yöndən öz üzərində işləsə və gündəlik idmanla məşğul olsa, belə birisinin əzələləri möhkəmlənər, bədəni güclü olar və bəzən şəkillərdə, bəzən isə real həyatda şahidi olduğumuz formada bir bədənə sahib olar. Bəzən bu cür insanların bədəni tamamilə əzələyə çevrilir. Sual olunur: məgər onlar bu cür yaradılıblar, yoxsa bu cür əzələli güclü bədəni çalışmaqla əldə ediblər? Təbii ki, bu onun çalışqanlığı və öz ixtiyarı ilə əldə etdiyi bir nəticədir.

Bax öz zəlalətində, inadında, küfründə və inkarında israr edən kəs də eynilə bu cürdür. Belə birisi öz inadı sayəsində Uca Allah tərəfindən qəlbinin möhürlənməsi və qəlbinə pərdə çəkilməsi səviyyəsinə gəlib çatar. Bu isə Uca Allahın onu bu hala məcbur etməsi ilə deyil, onun öz seçimi və öz əməli ilə baş verər. Bax bu, kafir olan insanların öz seçimləri

ilə əldə etdikləri kövni mənada olan bir qəlb möhürlənməsidir. Elmdən yoxsul olan kəslər elə zənn edir ki, onlar bu hala məcburi şəkildə gəlib çıxıblar. Halbuki onları heç kəs buna məcbur etməmişdir və onlar öz ixtiyarları, öz əməlləri ilə bu hala düşüblər. Şübhəsiz ki, Uca Allah bəndələrindən heç kəsə zülm etməz.

⁂ ⁂ ⁂

## MÜSHƏFİ ÖPMƏYİN HÖKMÜ

**8-ci sual:** Müshəfi[1] öpməyin hökmü nədir?

**Cavab:** Belə etiqad edirik ki, bu məsələ *"Sonradan ortaya çıxan yeniliklərdən həzər edin! Çünki sonradan dinə salınan hər bir əməl bidət, hər bir bidət isə zəlalətdir"*[2] hədisinin ümumi hökmünə daxildir. Digər hədisdə isə *"Hər zəlalət də Cəhənnəm odundadır"*[3] əlavəsi mövcuddur. Əksər insanların bu kimi məsələlərdə özlərinə xas xüsusi bir mövqeyi olur. Onlar, adətən, belə deyirlər: "Burda pis nə var ki? Müshəfi öpmək yalnız və yalnız Qurana qarşı təzimin və hörmətin bir göstəricisidir". Biz isə cavabında onlara belə deyirik: Tamamilə doğru söyləyirsiniz. Bu əməl Qurana qarşı təzimin və hörmətin bir əlamətidir. Lakin, görəsən, İslamın ilk nəsli, yəni Peyğəmbərin əshabı, habelə tabiinlər[4] və ətbəut-tabiin[5] Qurana qarşı olan bu təzim və hörmətdən qafil idilər? Şəkk yoxdur ki, bu sualın cavabı sələf alimlərinin dediyi kimi olacaqdır: "Əgər bu əməl xeyirli bir əməl olsaydı, onlar bizdən öncə bunu edərdilər".

Bu məsələnin bir yönü. Digər yönü isə belədir: Hər hansı bir şeyi öpməyin əsli hökmü nədir? Halal, yoxsa haram? Bu

---

[1] Müshəf dedikdə Quran kitabı nəzərdə tutulur. Belə ki, Allahın kəlamı mənasında istifadə olunduqda "Quran" ləfzindən, kitab mənasında istifadə olunduqda isə "müshəf" ləfzindən istifadə etmək daha yaxşıdır.

[2] "Səhih ət-tərğib vət-tərhib", 1/92, 34-cü rəvayət.

[3] "Salətut-Təravih", səh.75

[4] Tabiin dedikdə səhabədən sonrakı nəsil nəzərdə tutulur.

[5] Ətbəut-tabiin dedikdə tabiindən sonrakı nəsil nəzərdə tutulur.

məqamda Buxari və Müslimin "Səhih" əsərlərində rəvayət etdikləri bir hədisi qeyd etmək lazımdır. Bununla da öyüd almaq istəyən öyüd alar, habelə günümüzün müsəlmanlarının saleh sələflərindən, onların fiqhindən və önlərinə çıxan məsələləri həll etmə metodundan nə dərəcədə uzaq olduqlarını anlayar.

Sözügedən hədis budur: Abis ibn Rabia deyir ki, mən Ömər ibn Xattabı ﷺ Qara daşı öpərkən gördüm. O, Qara daşı öpərkən belə deyirdi: *"Mən bilirəm ki, sən, sadəcə olaraq, bir daş parçasısan, nə zərər, nə də xeyir verə bilərsən. Əgər Peyğəmbərin ﷺ səni öpdüyünü görməsəydim, əsla səni öpməzdim".* [1] Elə isə Faruqun [2] *"Əgər Peyğəmbərin ﷺ səni öpdüyünü görməsəydim, əsla səni öpməzdim"* sözünün mənası nədir?! Səhih bir hədisdə də ifadə edildiyi kimi, *"Qara daş Cənnətdəndir".*[3] Bəs Ömər ibn Xattab ﷺ Qara daşı nə üçün öpdü? Məgər onu özünün icad etdiyi hər hansı bir fəlsəfi fikrə görə mi öpdü? Sualda qeyd edildiyi kimi, "Quran Allahın kəlamıdır, ona görə də biz onu öpürük" deyən kəslər kimi, o da "Qara daş müttəqilərə vəd olunan Cənnətdən gələn bir daşdır, ona görə də mən onu öpürəm və onu öpməyin icazəli olması üçün də Peyğəmbərdən ﷺ hər hansı bir hədisə ehtiyac duymuram" deyərəkmi öpdü? Yoxsa, günümüzdə bəzi insanların demək istədiyi kimi, bu cür cüzi məsələlərdə belə bizim təbliğ etdiyimiz və "sələfi-məntiq" adlandırdığımız məntiq ilə hərəkət etdi? "Sələfi-məntiq" dedikdə Peyğəmbərə ﷺ və Qiyamət gününə qədər

---

[1] "Səhih ət-tərğib vət-tərhib", 1/94, 41-ci rəvayət.

[2] Faruq – Ömər ibn Xattabın ﷺ ləqəbi idi. Mənası, haqqı batildən ayıran deməkdir.

[3] "Səhih əl-cəmi", 3174

onun yolu ilə gedənlərə tabeçilikdə ixlaslı olmaq nəzərdə tutulur. Bax Ömərin رضي الله عنه mövqeyi bu idi. O: *"Əgər Peyğəmbərin ﷺ səni öpdüyünü görməsəydim, əsla səni öpməzdim"*, – deyirdi.

Deməli, bu kimi məsələlərdə əsli hökm budur ki, gərək biz bizdən öncəki saleh nəsillərin tətbiğatına uyğun hərəkət edək və bayaq vurğuladığım kimi, "bu, yaxşı əməldir, burda pis nə var ki?!" deyərək hökm verməyək. Gəlin birlikdə Zeyd ibn Sabitin رضي الله عنه mövqeyini xatırlayaq. Əbu Bəkr və Ömər رضي الله عنهما ona Quranın hifzi üçün onu bir kitab halında toplamağı təklif etdikdə necə hərəkət etdi? O belə dedi: "Peyğəmbərin ﷺ etmədiyi bir şeyi necə edirsiniz?" Bu gün müsəlmanlar dinlərində bu cür bir fəhmə əsla sahib deyildirlər.

Əgər sən müshəfi öpən birinə: "Peyğəmbərin ﷺ etmədiyi bir şeyi necə edirsən?" desən, sənə çox qəribə cavablar verər. Məsələn, "ey qardaşım, burda pis nə var ki? Bu, Qurana qarşı hörmətin əlamətidir", – deyər. Bunu deyənə belə cavab ver: "Ey qardaşım, bu söz sənin öz əleyhinədir. Məgər Allah rəsulu ﷺ Qurana hörmət etmirdi? Şübhəsiz ki, o, Qurana hörmət edirdi, buna rəğmən, onu öpməzdi.

Bəzən isə belə deyirlər: "Sən bizim müshəfi öpməyimizə qarşı çıxdığın halda, özün maşına minirsən, təyyarə ilə səfər edirsən, bu şeylər bidətdirmi?" Bu sözə belə cavab verilər: Zəlalət olan bidət məhz din ilə əlaqəli sonradan ortaya çıxan şeylərdir. Dünyəvi işlərə gəldikdə isə bayaq qeyd etdiyimiz kimi, bu kimi işlər icazəli də ola bilər, haram da. Bu, məlum bir şeydir, buna dair heç misal çəkməyə də ehtiyac yoxdur. Həcc etmək üçün bir insanın təyyarəyə minərək Allahın evi Kəbəyə doğru səfər etməsi şəkk yoxdur ki, icazəlidir.

Gəzmək və ziyarət qəsdi ilə bir insanın təyyarəyə minərək qərbə (avropaya) səfər etməsi isə, şəkk yoxdur ki, asilikdir.

Lakin təəbbüdü olan (din ilə bağlı) əməllərə gəldikdə isə bunu edənə "nə üçün edirsən?" deyə sual verilsə, deyəcək ki, Allaha yaxınlaşmaq qəsdi ilə edirəm. Elə isə cavab olaraq deyirəm: Bilmək lazımdır ki, Uca Allaha yalnız Onun Özünün təyin etdiyi formada yaxınlaşmaq mümkündür.

Lakin bu məqamda mən bir məsələni qeyd etmək istəyirəm. Qeyd edəcəyim məsələ, zənnimcə, "hər bidət zəlalətdir" qaydasının təsis edilməsi və gücləndirilməsi üçün çox önəmlidir. Qəti şəkildə bilmək lazımdır ki, din ilə bağlı bu kimi məsələləri ağılın gözəl görüb-görməməsinin heç bir əhəmiyyəti yoxdur![1]

Sələflərdən bəziləri belə deyərdi: *"Bir bidət ortaya çıxdıqda onun müqabilində bir sünnə aradan qalxar"*. Şəxsən mən özüm dində sonradan ortaya çıxmış (insanlar tərəfindən uydurulmuş) əməlləri daima izlədiyimə görə bu sözün gün kimi aydın bir həqiqət olduğunun fərqindəyəm və bilirəm ki, bu kimi əməllər əksər hallarda Peyğəmbərin ﷺ sünnəsinə necə müxalif olur.

---

[1] Çünki şəriətlə bağlı məsələlər ağılla deyil, nass – Quran və sünnə ilə təyin edilir. Ola bilsin ki, şəriətin təyin etdiyi hər hansı bir məsələni ağıl dərk edə bilməsin. Buna misal olaraq dəstəmaz zamanı ayaq geyiminin üstünə məsh etməyi misal göstərmək olar. Bu səbəbdən də səhabə Əli ibn Əbu Talib ؓ belə demişdir: *"Əgər din mücərrəd ağıl və rəy ilə olsaydı, o zaman ayaqların (yəni corabların) altına məsh çəkmək üstünə məsh çəkməkdən daha düzgün olardı. Lakin mən Peyğəmbəri ﷺ məhz corablarının üstünə məsh çəkən gördüm"* (İbn Əbi Şeybə "əl-Müsənnəf" 1/181, Əbu Davud, 162 və 164, İbn Həcər əsərin səhih olduğunu qeyd etmişdir. Bax: "Ət-Təlxisul-habir" 1/160).

Həqiqi elm və fəzilət əhli kəslər Quran oxumaq üçün müshəfi əllərinə götürdükdə sən onları heç vaxt onu öpən görməzsən. Lakin onlar müshəfin içindəkilər ilə əməl edərlər. Emosiyalarının həddi-hüdudu olmayan avam insanlar isə "burda pis nə var ki?" deyərlər, lakin özləri müshəfin içindəkilər ilə əməl etməzlər.[1] Elə isə biz də bu qaydanı təkrar edirik. Bəli, həqiqətən də, bir bidət ortaya çıxdıqda onun müqabilində bir sünnə aradan qalxar.[2]

Bu bidətin bənzəri digər bidət də budur: Biz azanı eşitdikdə ayağa qalxan insanları görürük. Hətta bunu qəlblərində iman qalıntısı qalan fasiqlər belə edir. Əgər onlara: "Nə üçün ayağa qalxırsınız?" deyə sual versəniz, sizə belə cavab verəcəklər: "Uca Allaha təzim üçün!" Bunu deyən həmin şəxslər namaz vaxtı məscidə getmir, əksinə, oturub nərd, şahmat və bu kimi oyunlar oynayırlar. Lakin elə zənn edirlər ki, azanı eşitdikdə ayağa qalxmaqla Uca Allaha təzim etmiş olurlar. Bu əməlin mənbəyi nədir? Təbii

---

[1] Allahın kitabı Qurana hörmət onu ələ götürdükdə öpüb göz üstünə qoymaqla ölçülmür. Qurana qarşı həqiqi təzim onun buyuruqlarına əməl etməkdir.

[2] Yəni sanki "Qurana əməl etmək" sünnəsini "müshəfi öpmək" bidəti əvəz edib. Buna dair digər bir misal da Quran oxuduqdan sonra *"sadaqallahul-Azim"* demək bidətidir. Bu bidət ortaya çıxdığı və insanlar arasında yayıldığı ilk gündən ta bu günəcən öz müqabilində bir sünnəti ortadan qaldırmış və insanlara unutdurmuşdur. Həmin sünnət isə Quran oxuduqdan sonra *"Subhanəkə Allahummə və bihəmdikə, əşhədu əllə iləhə illə əntə, əstəğfirukə və ətubu ileykə"* duasını oxumaqdır. Belə ki, Aişə anamız demişdir: *"Peyğəmbər ﷺ olduğu hər məclisi, oxuduğu Quranı və qıldığı hər namazı bu kəlmələr ilə tamamlayardı"* (Əhməd, 24486, hədis səhihdir).

ki, bu əməlin mənbəyi əsli olmayan uydurma bir hədisdir. Həmin hədis budur: *“Azanı eşitdikdə ayağa qalxın!”*[1]

Onu qeyd edək ki, bu hədisin əsli var, lakin həmin hədis bəzi zəif və yalançı ravilər tərəfindən təhrif edilmişdir. Əslində, hədis bu cürdür: “Azanı eşitdikdə müəzzinin dediklərini siz də deyin, sonra da mənim üçün dua edin...”. Bunlar isə hədisi qısaltmış və hədisdə keçən “deyin” əmrini “ayağa qalxın” əmri ilə əvəz etmişlər.[2] Fikir verin, görün şeytan insana bidəti (xurafatları) necə gözəl göstərir və onu inandırır ki, o, Uca Allahın buyuruqlarına hörmətlə yanaşan mömin bir bəndədir. Çünki o, müshəfi əlinə aldıqda onu öpür və azanı eşitdikdə ayağa qalxır. Görəsən, o, Qurana əməl edirmi? Xeyr, Qurana əməl etmir. Ola bilsin ki, namaz qılır, lakin haram yemirmi, sələmçiliklə məşğul olmurmu, insanlar arasında Allaha qarşı asiliklərin artmasına səbəb olan şeyləri yaymırmı? Bu kimi çox suallar vermək olar. Bu səbəbdən də biz Uca Allahın təyin etdiyi ibadətlərdə, itaətlərdə həddi aşmaz və onlara bir kəlmə belə əlavə etmərik. Çünki hal-vəziyyət Peyğəmbərin ﷺ dediyi kimidir: *“Uca Allahın əmr etdiyi hər şeyi əskiksiz bir şəkildə sizə əmr etdim”.*[3]

Sual olunur: Sən etdiyin bu əməllə Uca Allaha yaxınlaşmaqmı istəyirsən? Əgər cavab “bəli” olarsa, o

---

[1] “Silsilə əd-daifə”, 711

[2] Hədisin mətni belədir: “إذا سمعتم الاذان فقولوا...” (izə səmitumul-əzən fə-qulu), yəni “azanı eşitdikdə müəzzinin dediklərini deyin”. Bunlar isə hədisi bir hərf dəyişməklə, yəni “ləm” hərfini “mim” hərfi ilə əvəz etməklə bu formada təhrif etmişlər: “إذا سمعتم الاذان فقوموا” (izə səmitumul-əzən fə-qumu), yəni “azanı eşitdikdə ayağa qalxın!”.

[3] Hədis səhihdir. Bax: “Silsilə əs-səhihə”, 1803

zaman Peyğəmbərin ﷺ belə etdiyinə və ya bunu əmr etdiyinə dair dəlil tələb olunar. Əgər deyilsə ki, bu barədə bir dəlil yoxdur, bu zaman belə deyilər: Dəlili olmayan hər əməl bidət, hər bidət isə zəlalət sayılır. Hər zəlalət də Cəhənnəm odundadır. Heç kəs bu deyilənləri təəccüblə qarşılayaraq "bu cür bəsit bir məsələ necə zəlalət sayıla bilər və bu cür sadə bir əməli edən şəxs necə Cəhənnəmə vasil ola bilər?" deməsin. İmam Şatibi bu məsələyə "nə qədər kiçik olursa-olsun, hər bir bidət zəlalətdir" deyərək cavab vermişdir. Hər hansı bir bidətə "zəlalət" hökmü verildikdə bidət olan həmin əməlin özünə baxılmaz. Əksinə, bu hökm verildikdə həmin bidətin ortaya çıxdığı yerə diqqət edilər. Bəs bu yer haradır? Cavab: Həmin yer İslam şəriətidir. O İslam ki artıq Uca Allah tərəfindən tamamlanmışdır və heç kəsin bu dinə kiçik və ya böyük hər hansı bir xurafat əlavə etməsinə haqqı yoxdur. Bax hər bidətin zəlalət olmasının səbəbi məhz budur. Xülasə, bidət mücərrəd olaraq sonradan uydurulmuş bir əməl olduğuna görə deyil, "Allah və Peyğəmbərinin ﷺ dində naqis buraxdığı bir şeyi bidət olan əməllər tamamlayar" mənasını verdiyinə görə zəlalət sayılmaqdadır.[1]

⁂ ⁂ ⁂

[1] İmam Malik demişdir: "Kim İslam dinində bir bidət ortaya çıxarsa və həmin bidəti gözəl görsə, bununla o, Muhəmmədin ﷺ öz risalətinə (şəriətinə) xəyanət etdiyini iddia etmiş olar. Çünki Uca Allah *"bu gün sizin üçün dininizi tamamladım"* (əl-Maidə, 3) buyurur. O gün (yəni Peyğəmbərin ﷺ zamanında) dindən olmayan bir şey bu gün də dindən ola bilməz" (Şatibi, "əl-İtisam" 1/28 və ya 64).

# QURANİ-KƏRİMİ TƏFSİR ETMƏYİN ÜSLUBU

**9-cu sual:** Qurani-Kərimi necə təfsir etməliyik?

**Cavab:** Uca Allah insanları küfr və cəhalətin zülmətindən İslamın nuruna çıxartmaq üçün Qurani-Kərimi elçisi Muhəmmədin qəlbinə endirdi. Uca Allah belə buyurur: *"Əlif. Ləm. Ra. Bu, insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – İzzətli, Tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır".* [1] Uca Allah rəsulu Muhəmmədi ﷺ bu Quranda olanları bəyan edən, açıqlayan və izah edən etdi. O belə buyurur: *"Sənə də Zikri nazil etdik ki, insanlara onlara nazil olanı izah edəsən və bəlkə, onlar fikirləşələr".*[2] Deməli, sünnə (hədislər) Quranı açıqlayan və onu izah edən mənbədir. Sünnə də (Quran kimi) Allah tərəfindən vəhy edilmişdir. Uca Allah buyurur: *"O (peyğəmbər) öz nəfsindən danışmır. Bu ona nazil olan bir vəhydir".*[3] Peyğəmbər ﷺ belə demişdir: *"Agah olun ki, mənə Quran və ona oxşarı (sünnə) verilmişdir. Bir kəsin öz oturacağına dirsəklənərək: "Siz Qurana tabe olun! Yalnız Quranda halal olan bir şeyi halal, haram olan bir şeyi də haram sayın!" deyəcəyi vaxta az qalıb. Bilin ki, Allah rəsulunun haram etdiyi şey eynilə Allahın haram etdiyi şey kimidir".*[4]

---

[1] İbrahim, 1

[2] Ən-Nəhl, 44

[3] Ən-Nəcm, 3-4

[4] "Mişkət əl-məsabih", 163

Qurani-Kərim, ilk növbədə, Quran və sünnə (Peyğəmbərin ﷺ kəlamı, əməlləri və iqrarı) ilə, daha sonra isə başda səhabələr olmaqla elm əhlinin sözləri əsasında təfsir edilməlidir. Onların önündə isə səhabə Abdullah ibn Məsud ﷺ gəlməkdədir. Çünki o, ilk səhabələrdən idi və daima Peyğəmbərə ﷺ Quranın təfsiri ilə əlaqəli suallar verərdi. Daha sonra səhabə Abdullah ibn Abbas ﷺ gəlir. Hətta Abdullah ibn Məsud ﷺ onun barədə: *"O, Quranın tərcüməçisidir"*, – demişdir. Onlardan sonra Quranın təfsirinə dair hər hansı bir səhabədən bir nəql, rəvayət sabit olmuşdursa və həmin ayənin təfsirində səhabələr arasında bir ixtilaf baş verməmişdirsə, bu zaman həmin təfsiri canla-başla, könül xoşluğu ilə qəbul edərik. Əgər ayənin təfsiri ilə əlaqədar əlimizdə hər hansı bir səhabənin təfsiri mövcud deyilsə, bu zaman Quran təfsirini Peyğəmbərin əshabından əxz edən tabiinlərin təfsirinə baş vurmaq bizə vacib olar. Belələrinə Peyğəmbərin əshabından, xüsusən də, İbn Abbasdan ﷺ təfsir elmini öyrənən və bu sahədə məşhurlaşan Səid ibn Cubeyr, Tavus və digər tabiinləri misal göstərmək olar.

Çox təəssüflər olsun ki, bəzi hallarda müəyyən ayələr ağıl ilə, yaxud hansısa məzhəbin rəyinə müvafiq şəkildə təfsir edilməkdədir. Elə ayələr vardır ki, o barədə Peyğəmbərdən ﷺ nə isə sabit olmamışdır və bəzi mütəəxxir alimlər həmin ayələri məzhəblərinə müvafiq şəkildə təfsir etməkdədirlər.[1] Bu çox təhlükəli bir məsələdir. Belə ki, təfsir alimləri ayəni həmin məzhəbin rəyinə müxalif şəkildə təfsir etdikləri halda, məzhəbin alimi ayəni məhz məzhəbinin rəyinə müvafiq şəkildə təfsir etməyə səy göstərir. Buna

[1] Burada söhbət Hənəfi məzhəbindən gedir.

misal olaraq, Uca Allahın *"Qurandan sizə asan gələni oxuyun!"*[1] kəlamını qeyd etmək olar. Belə ki, bəzi məzhəblər bu ayəni elə Quran tilavəti olaraq təfsir etmişdir. Yəni namaz qılarkən vacib olan Qurandan bir uzun və ya üç qısa ayənin oxunmasıdır. *"Fatihəni oxumayanın namazı yoxdur"*[2] hədisinə rəğmən, onlar bu ayəni bu cür təfsir etmişlər. Digər hədisdə isə belə deyilir: *"Kim qıldığı namazında Fatihəni oxumazsa, həmin namaz naqisdir, naqisdir, naqisdir – kamil deyildir".*[3]

Beləcə bu iki hədisin dəlalət etdiyi hökm yuxarıda qeyd edilən ayənin sözügedən təfsiri ilə, yəni ayənin məhz ümumi Quran tilavəti mənasında olduğu iddiası ilə rədd edilmişdir. Həmçinin onlara görə, Quran yalnız mütəvatir hədislə təfsir edilə bilər.[4] Yəni mütəvatir olan Quran yalnız mütəvatir sünnə ilə təfsir edilməlidir.[5] Beləcə onlar sözügedən ayəni öz rəyləri və məzhəbləri əsasında təfsir etdiklərinə görə bu iki hədisi qəbul etməmişlər.[6] Lakin

---

[1] Əl-Müzzəmmil, 20

[2] "Səhih əl-cəmi", 7389

[3] "Sifətus-saləh", 97

[4] Hənəfi məzhəbi alimlərini nəzərdə tutur.

[5] "Mütəvatir" hədis dedikdə yalan üzərində ittifaq etmələri qeyri-mümkün olan bir dəstə insanın rəvayət etdiyi və özlərindən sonrakı nəslə – yalan üzərində ittifaq etmələri mümkün olmayan digər bir dəstə insana nəql etdikləri və beləcə hər nəsildə bir neçə nəfər tərəfindən deyil, toplum (çoxsaylı insanlar) tərəfindən rəvayət olunan hədislər nəzərdə tutulur. Qurani-Kərim və bəzi hədislər bizə bu yolla, yəni mütəvatir yolla nəql olunmuşdur. Mütəvatir dərəcəsinə çatmayan hədislər "əhəd" hədislər adlanır ki, əksər hədislər də bizə əhəd yolla çatmışdır.

[6] Hənəfi məzhəbinə görə, namazda əl-Fatihə surəsini oxumaq rükn sayılmır. Çünki onlar yuxarıda qeyd edilən ayəni dəlil gətirərək demişlər ki, namazda hər hansı bir ayə və ya surə oxuna bilər. Həmin

keçmiş və mütəəxxir (daha sonra gələn) bütün təfsir alimləri bu ayədəki *"Qurandan sizə asan gələni oxuyun!"* kəlamını "gücünüz çatan qədər gecə namazı qılın!" şəklində təfsir etmişlər. Çünki Uca Allah bu kəlamı gecə namazı ilə əlaqəli ayədə zikr etmişdir. İlk öncə *"Həqiqətən, Rəbbin bilir ki, sən və səninlə olan insanların bir qismi bəzən gecənin üçdə ikisindən az, bəzən yarısını, bəzən də üçdə birini ibadət üçün durursunuz. Gecə və gündüzü Allah ölçüb müəyyənləşdirir"* [1] buyurmuş və ardınca da belə demişdir: *"Qurandan sizə asan gələni oxuyun!"* Yəni gücünüz çatan qədər – sizə asan və rahat olan qədər gecə namazı qılın! Deməli, bu ayə namaz qılanın gecə namazında hansı miqdarda Quran oxumalı olduğunu bəyan etmir. Sadəcə olaraq, Uca Allah müsəlmanlara onlara asan və rahat olacaq qədər gecə namazına durmalarına dair rüsxət vermişdir. Yəni Peyğəmbər ﷺ kimi hər gecə onların da on bir rükət gecə namazı qılmaları vacib deyildir. Bax ayənin mənası budur! Bu isə ərəb dili üslubunda "itləqul-cüz və iradətül-kül", yəni "bir hissəni qeyd edib, tamamını nəzərdə tutmaq" adlanır.[2] Ayədə qeyd olunan *"oxuyun!"*

---

ayənin ifadə etdiyi bu hökmü yuxarıda qeyd olunan hədislərə müxalif gördüklərinə görə hədisləri qəbul etməmişlər. Çünki həmin hədislərə əsasən, namazda əl-Fatihə surəsini oxumaq rükn hesab edilir.

[1] Əl-Müzzəmmil, 20

[2] Misal olaraq Uca Allahın *"O, bir kölə azad etməkdir"* (əl-Bələd, 13) ayəsini qeyd etmək olar. Ayənin ləfzi tərcüməsi belədir: *"O, bir <u>boyun</u> azad etməkdir"*. Kölələr boyunduruq altında olduqlarına görə Uca Allah bir "boyun" azad etməyi əmr etmişdir. Məlumdur ki, boyun bir kölənin tamamı deyil, onun sadəcə olaraq bir üzvüdür. Deməli, Uca Allah bu ayədə kölənin bir üzvünü qeyd etməklə, onun bütün cismini nəzərdə tutmuşdur. Qeyd olunan qayda isə bu cürdür: "Bir hissəni qeyd edib, tamamını nəzərdə tutmaq".

əmri "namaz qılın!" mənasındadır. Burada namaz "kül", yəni ibadətin tamamı, qiraət isə onun bir hissəsidir.[1] Ayədə məhz bu hissənin, yəni qiraətin qeyd olunmasının səbəbi isə qiraətin namazda olan əhəmiyyətinə görədir. Bunun başqa bir misalı isə Uca Allahın bu kəlamıdır: *"Gün batmağa meyil edəndən gecənin qaranlığınadək namaz qıl. Sübh qiraətini də əda et!"*.[2] Burada "sübh qiraəti" dedikdə məhz "Sübh namazı" nəzərdə tutulur. Bu ayədə də ibadətin bir hissəsi – qiraət qeyd olunsa da, ibadətin tamamı – namaz nəzərdə tutulmaqdadır. Bu üslub ərəb dilində bilinən bir üslubdur.

Deməli, aralarında heç bir ixtilaf olmadan sələf və xələf alimləri bu ayənin mənasını bu şəkildə izah etmişdir. Elə isə yuxarıda qeyd olunan iki hədisin əhəd hədis olması bəhanəsi ilə və "Quran əhəd hədislərlə təfsir olunmaz" iddiası ilə rədd edilməsi icazəli deyildir. Çünki birincisi, sözügedən ayə ərəb dilini mükəmməl bilən alimlərin sözləri əsasında təfsir edilmişdir. İkincisi isə Peyğəmbərin ﷺ sözü heç vaxt Qurana müxalif ola bilməz. Əksinə, hədislər Quranı açıqlayan və təfsir edən mənbədir. Necə ki biz bunu elə bu ayə ətrafında gedən söhbət əsnasında izah etdik. Xülasə, qeyd olunan hədislər ayəyə necə müxalif ola bilər ki, ümumiyyətlə, ayə namaz qılanın fərz və ya nafilə namazlarda hansı surə və ayəni oxuyub-oxumaması ilə əlaqəlidir?! Yuxarıda qeyd edilən iki hədisin dəlalət etdiyi məna isə belədir: Qılınan namaz əl-Fatihə surəsi oxunmadıqca doğru hesab olunmaz. Çünki Peyğəmbər ﷺ

[1] Yəni Uca Allah namazın bir hissəsi olan "qiraət"i qeyd etsə də, bununla qiraətin özünü deyil, həmin ibadətin tamamını, yəni namazı qəsd etmişdir.
[2] Əl-İsra, 78

belə demişdir: *“Kitabın Fatihəsini oxumayanın namazı yoxdur”*[1] ;*“Kim qıldığı namazında Fatihəni oxumazsa, həmin namaz naqisdir, naqisdir, naqisdir – kamil deyildir”.*[2] Kim naqis halda namazdan ayrılsa, namaz qılmamış sayılar və beləcə ibadəti batil olar. Necə ki bu elə birinci hədisin ifadə etdiyi hökmdür.

Əgər bu həqiqət bizə aydın oldusa, o zaman hədis kitablarında səhih sənədlərlə Peyğəmbərdən ﷺ nəql olunmuş hədislərə rahat bir şəkildə etibar edə bilərik. Beləcə biz bu hədislər barədə müasir dövrdə eşitdiyimiz bəzi fəlsəfi fikirlər əsasında heç bir şübhəyə düşmərik. Həmin batil fikirlərdən biri də budur: “Əhəd hədislər fiqhi məsələlərdə deyil, etiqadi mövzularda olduğu müddətcə biz həmin hədislərə etibar etmərik. Çünki əhəd hədislər üzərində etiqadi məsələlər qurulmaz”.[3] Bax onlar belə iddialar irəli sürdülər. Halbuki Peyğəmbər ﷺ Muazı tək halda kitab əhlinin yanına onlara tövhidi (əqidəni) öyrətmək üçün göndərmişdi.[4]

“Qurani-Kərimi necə təfsir etməliyik?” sualı ilə əlaqəli bəyan etmək istədiyim bu bilgilərlə kifayətlənirəm.

Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə, əshabına və Qiyamət gününə qədər onların yolu ilə gedənlərə Uca

---

[1] “Səhih əl-cəmi”, 7389

[2] “Sifətus-saləh”, 97

[3] İmam Əlbaninin bu şübhəyə cavab yönündə qələmə aldığı bir risaləsi mövcuddur. İnşallah, həmin risaləni də, yaxın bir zamanda, ana dilimizə tərcümə edərək oxucuların xidmətinə təqdim etməyi düşünürük.

[4] Yəni etiqadi mövzularda əhəd hədis dəlil hesab edilmirsə, o zaman Peyğəmbər ﷺ əqidəni öyrətməsi üçün Muazı tək halda əhli kitabın yanına necə göndərdi?!

Allahın salamı və bərəkəti, aləmlərin Rəbbi olan Allaha isə həmd-sənalar olsun!

⁂ ⁂ ⁂

# MÜNDƏRİCAT

Müqəddimə......................................................................................4
**1-ci sual:**
*"İstədiyin bir məsələ üçün Qurandan istədiyini götür"* hədisi barədə........................................................................................ 7
**2-ci sual:**
Quranilərin dəlil gətirdikləri bəzi ayə və hədislər barədə açıqlama......................................................................................10
**3-cü sual:**
Hədis Qurana müxalif olarsa, nə etmək lazımdır?................. 14
**4-cü sual:**
Quran oxunduğu halda onu dinləməyib başqa işlə məşğul olmağın hökmü nədir?..............................................................21
**5-ci sual:**
Ali-İmran, 54-cü ayənin mənası nədir?....................................23
**6-cı sual:**
Ali-İmran, 85-ci və əl-Maidə, 69-cu ayələri bir yerdə düzgün şəkildə necə anlamaq olar?.......................................................26
**7-ci sual:**
Əl-Ənam, 25-ci ayədə cəbriliyin dəlili varmı?.........................29
**8-ci sual:**
Müshəfi öpməyin hökmü nədir?...............................................34
**9-cu sual:**
Qurani-Kərimi necə təfsir etməliyik?........................................41